Drawing from nature is an excellent tool in the aesthetic education of children. When children paint landscapes, trees and flowers from nature, they learn about the characteristic shape of these objects and awaken their interest in the beauty, abundance and diversity of nature. They see the full proportions of the whole and the parts and occupy rhythm and harmony in the forms of nature.

Drawing lessons in nature, like other types of classes, are organized taking into account the logical sequence of the educational material, taking into account the volume of the material, the depth and timing of the topic content.

Drawing lessons in nature can have the educational and pedagogical value that students need only if they are guided by the correct methodology.

***Rəyçi: Əbülfəz Əiyev***
***Təsviri incəsənət kafedrasının 26 noyabr 2021-ci il tarixli iclasın 03 saylı protokolu***
***Daxil olduğu tarix 20 dekabr 2021-ci il***

**UOT -37.01.**

## MƏNZƏRƏNİN AKVAREL ÜSULU İLƏ İŞLƏNMƏSİ

***p.ü.f.d., dosent Hüseynov Akif Əlirza***
***SSRİ Rəssamlar İttifaqının üzvü***
***Gəncə Dövlət Universiteti***
*elnara.rasulova70@gmail.com*

**Xülasə:** *Məqsədimiz, ali məktəblərdə akvarel rəngkarlığının təsvir edilməsi qaydalarını tələbələrə öyrətməkdən ibarətdir. Əsas məqsəd tələbələrin bilik və bacarıqlarını yüksəltməyə yönəltməkdir.*

*Akvarel rəngkarlığı – təsviri incəsənət müəlliminin hazırlanması sistemində mühüm tədris fənnidir. Başqa fənlərlə yanaşı rəngkarlığın öyrənilməsi orta məktəb üçün ixtisaslı kadrlar hazırlanmasına kömək edir.*

**Açar sözlər:** Akvarel-sulu boya, kolorit rəng uyğunluğu, janr-növ, planşet-taxta lövhə

**Ключевые слова:**Акварель-Акварель, подбор цветов, жанр-тип, планшет-деревянная доска

**Keywords**:Watercolor-Watercolor, color matching, genre-type, tablet -wooden board

İnsan həyatının elə bir sahəsi yoxdur ki, bu sənətin nümunələrinə o cümlədən mənzərə və əsərlərinə təsadüf etməsin. Doğrudan da təsviri sənət bizi hər yerdə əhatə edir.

Sənət əsəri ilhamlı təxəyyülün sonsuz axtarışların, ürək çırpıntılarının nəticəsidir. Bunun nəticəsində təsviri incəsənətin klassik nümunələri insan təbiətinə tükənməz vüsat ehtirasla, incə və təsirli ifadə qüvvəsi ilə yol tapır.

İnsanın hisləri estetik tələblərə müxtəlif olduğu kimi, bu hislərə qida verən incəsənətin növləri də müxtəlifdir. Hər bir sənət növünün özünəməxsus spesifik ifadə forması obrazları sistemi vardır.

Mənzərə janrını – tez – tez məişət, batal və tarixi janrlarla bir vacib əlavə kimi baxılır, amma hər halda mənzərə janrı bir müstəqil təsviri incəsənət növü kimi öz yerini möhkəm saxlayır. Mənzərə janrının özəl xüsusiyyəti ondadır ki, sadə və sıravi vətəndaşa daha da yaxındır, amma bəzən insan özü mənzərədə təsvir olunmur, əksəriyyət işlərdə sadəcə təbiət flora və fauna təsvir edilir.














Bu janr insanın təbiətə münasibətini qabarıq şəkildə diqqətə çatdırır, çünki insan tərəfindən dərk olunan, qavranılan onun qəlbində lirik, qəmgin yaxud nikbin hisslər oyadan təbiətdir. Sanki təbiəti elə yaratmışdır ki, sanki təbiət bir rəssamın fırçasından çıxmış tablodur. İnsan təbiəti seyr edərkən ecazkar duyğular yaşayır.

Yaradıcı insan bu mənzərə qarşısında təsirsiz qala bilməz. Rəssam təbiətin gözəlliklərini havanı, rəngləri verərkən şəxsi hiss və duyğularını əks etdirir.

Təbiətin canlı surətləri vasitəsilə rəssam əvəz olunmaz əsərlər yaradır.





Mənzərə əsərləri mövzu etibarı ilə müxtəlif olur, məsələn: təbiətin müxtəlif guşələrinin - dağ, dərə, çay, meşə, çəmən səhra ə s. təsviri və ya təbiət hadisələrinin - tufan, ildırım yağış, qar və s. təsviri, eləcə də şəhər və ya sənaye mənzərələrinin təsviri. Bu bölgünü bu siyahını bəlkə uzatmaq da olar. Yəqin bunu da bilmək lazımdır ki, dəniz mənzərəsinə həsr olunmuş əsərlərə "marina" onları çəkən rəssamlara isə "marinist" deyirlər. Əslən türk olan rus rəssamı İ.A.Ayvazoskiy (1817 - 1900) onun möhtəşəm şah əsəri sayılan "9 -cu val" dənizdə batan gəminin sağ qalan bir neçə heyətinin fəryadını canlandırır və bu əsər dünya təsviri incəsənətinə böyük təsir göstərmişdir. Yenə də mənzərə janrının böyük Rus ustaları A.K.Savrasov., İ.V.Levitan., A.Şişkin., V.D.Polenov.





Mənzərə janrı Azərbaycan rəngkarlığının aparıcı janrlarından biridir. Azərbaycan təsviri incəsənətində bu janrın kökləri ta qədim zamanlara dayanır ancaq Sovet dövründə yeni reallıqların, yepi ictimai növ və münasibətlərin ən effektiv forması kimi inkişaf etməyə başlayır.




Azərbaycanın ilk mənzərə ustalarından Bəhruz Kəngərli yaradıcılığında bir çox akvarel və yağlı boya ilə işlənmiş mənzərələri mənzərə janrında mühüm yer tutur.

Azərbaycanın rəssamlarının yaradıcılığında mənzərə janrı əsasən 1950 –ci illərin sonlarından başlayaraq B.Mirzəzadə, M.Abdullayev., A.Cəfərov., N.Abdürrəhmanov., Q.Seyfullayev., T.Qafarov., H.Əliyev dahi ustadımız Səttar Bəhlulzadə., V.Səmədova., T.Salahov və s. bu gündə davam etdirilər.




Rəssam – müəllim mənzərə haqqında adi təsvirlərə üstün gəlməyi öyrənməli, onu əhatə edən mühitdə görə bilmək bacarığını inkişaf etdirməli, təbiətə (indi danışdığımız halda mənzərəyə) harmonik, bütov, vəhdətdə olan qrupu kimi baxmağı bacarmalıdır.

Tədris proqramında mənzərənin akvarel üsulu ilə işlənməsinin xüsusi yeri vardır və bu mövzu üçün lazımi saatlar ayrılmışdır. (latınca “akvarel” – “su” ilə qarışdırılan rəng deməkdir).

Mənzərənin akvarel ilə işləmək üçün bir çox texniki üsullardan istifadə etmək olar. Akvarellə mənzərni işləməkdən qabaq təbiəti çoxlu müşahidə etmək və sonar lazımi qədər nabroska və eskizlər etmək lazımdır.

Mənzərənin akvarel ilə işləmək üçün ilkin vaxtlarda, çox da böyük olmayan formatdan başlamaq lazımdır. Məsələn: A3 format kağız kifayətdir. Əgər bu formatda iş lazımi dərəcədə alınarsa sonra A2, A1- formatlarda işləmək olar.

Mənzərə işləmək üçün bizə əsas akvarel rəngləri, fırçalar, su bankası və palitra kifayətdir. Ən əsası bir üzü nahamar kağız olması vacibdir. Ona görə ki, sığallı kağızda rəng axır və işləmək çətindir.

Akvarellə işləyərkən tam diqqətli olmaq lazımdır. Düzdür akvarellə işləmək çətindir, lakin akvarel maraqlı və cəlb edicidir. Akvarelin əsas üstünlüyü ondan ibarətdir ki, onun

vasitəsi ilə kağız üzərində rəngin təmizliyini, şəffaflığını və parlaqlığını ifadə etmək mümkündür.

Rəssam günəşli havanı işləyərkən təbiətin rənglərinə və reflekslərə diqqət yetirməlidir. Parlaq günəşli günlərdə təbiətdə olan dağlar, çaylar, ağaclar və çəmənliklərin işıqlanmış səthlərin rəngləri və rəngi açıqlaşır. Bu zaman kölgələr reflekslərlə zəngin olur. Mənzərənin rəngindən asılı olaraq refleksləri isti və soyuq ola bilər. Rəngkarlıq əsərinin bütün rəng düzümünün ümumi xarakteristikasına rəng həllinin bütün elementlərinin qarşılıqlı əlaqəsinə “kolorit” – deyilir.





İlk növbədə kağızı planşet üzərinə PVA kley vasitəsi ilə möhkəm çəkirik. “PLanşet” – kağızı yapışdırmaq üçün xüsusi taxta parçasıdır. Kağız – büzülməsin deyə ona görə, planşetə çəkilir. Mənzərənin rəsmini kontur xətlər ilə çəkirik və sonar planşeti $30^0$, $40^0$ – dərəcədə arxası üstə söykəyirik. İşə başlamazdan əvvəl hər bir akvarel rəngləri üzərinə bir damcı su əlavə edirik. Ona görə ki, rənglərdə yumşaqlıq əmələ gəlsin, iş zamanı bu çox vacibdir.

Akvarel ilə işləməyin bir çox üsulları var, lakin bizə lazım olan əsas üsullardan biri quru kağız üzərində işləməkdir. Yəni kağızın yuxarı və sol tərəf hissədən başlayaraq mənzərənin hava hissəsini rəngləməyə başlayırıq. Yastı enli fırçanı rənglə birlikdə kağızın solundan – sağa doğru çəkirik.

Hər bir yaxmadan sonra aşağıdan həmin vəziyyətdə yaxmaları çəkirik. Yaxmalar növbə ilə çəkdikcə rənglər bir - birinə ardıcıl olaraq keçid forması alır. Bu belə bir neçə dəfə təkrar olunur. Sonra yumru kiçik fırça ilə üfüqi xəttini təyin edirik. Beləliklə, mənzərənin qurulmuş kompozisiyasını açıq və tünd hissələrini rənglə işləyib tamamlayırıq. Sonra mənzərəni nəmli üsulla işləyirik. Bu üsulunda öz maraqlı çətinlikləri vardır.

Yenə də planşetə çəkilmiş kağızı isladırıq və sonra rəngi fırça ilə bir az qatı götürürürk və işi bir başa davam etdiririk. Bunlardan başqa akvarellə işləməyin bir çox üsulları var və biz onlar haqqında növbəti işlərimizdə danışacağıq.

Başa çatmış akvarel işlərini pasportuya qoyurlar. Pasportu əsəri haşiyəyə alır, fon yaradır, tamaşaçının diqqətini nümayiş etdirilən işə cəlb edir.

Əksər hallarda pasportu üçün ağ qalın kağızdan və ya ağ kartondan və bəzən də ton verilmiş kağızdan istifadə edirlər. Pasportunu belə hazırlayırlar: kağız və kartonda ölçüsü əsərdən bir qədər kiçik olan dördbucaqlı kəsib çıxardırlar. Pasportunun zolaqlarının oxşarlıq metodu ilə müəyyənləşdirilir. Rəsmin ölçüləri nə qədər kiçik olsa, pasportu o qədər böyük olmalıdır.

Pasportu kəsilmiş hissə rəsmlə uzlaşdırılır, onlar bir yerdə üzü üstə çevrilir, sonar isə rəsm pasportuya dörd tərəfdən lekoplastr vasitəsi ilə yapışdırılır. Sonra rəsm şüşə ilə birlikdə haşiyəli ramkaya geyindirilir. Tamamlanmış hazır iş asılqan vasitəsi ilə divardan asılır.

Təbiidir ki, mənzərə tapşırıqlarını akvarel üslubi ilə işləməyi tam əldə etdikdən və müəyyən vərdişlər əldə etdikdən sonar, mənzərənin yağlı boya ilə çəkmək zərurəəti meydana

çıxır.





**Akvarel işlərinin tərtibatı.**

Apardığımız məşğələlər və akvarel üslubi ilə mənzərə işlərinin təhlili bizim belə bir nəticəyə gəlməyimizə imkan verir ki, tələbələrin, akvarel üslubi üçün materialların xassələrini, mənzərənin işlənməsi zamanı rəng duyumlarını və imkanlarını bilməsi tədris işlərinin keyfiyyətini yüksəltməyə kömək edir və bədii ustalığın əsaslarının formalaşması üçün şərait yaradır.

Əsas məqsədimiz ali məktəblərdə mənzərə tapşırıqlarının akvarellə təsvir edilməsini tələbələrə öyrətməkdən ibarətdir.

***Ədəbiyyat***

Əli Verdiyev. "Dəzgah rəngkarlığı" Dərslik. 71 səh. Bakı. 1988
Г.Б.Беда. «Живопись исскуство» Москва. 1971
R.Əfəndiyev. "Mikayıl Abdullayev" Bakı. 1958
Е.В.Шорохов. Основы композиции. «Просвещение» 1979

## РАБОТА ПЕЙЗАЖА СПОСОБОМ АКВАРЕЛЯ

***Гусейнов Акиф Алирза***

***Резюме***

Наша цель - научить способом, правилам рисования акварелью. Основная цель заключается в расширении знаний и навыков студентов.

## LANDSCAPE WORK BY AQUARIUS METHOD

***Huseynov Akif Alirza***

***Summary***

Our goal is to teach students to draw watercolors in high school. The main goal is to expand the knowledge and skills of students.

***Rəyçi: dos. Məmmədov Mərdan***
***Təsviri incəsənət kafedrasının 26 noyabr 2021-ci il tarixli iclasın 03 saylı protokolu***
***Daxil olduğu tarix 20 dekabr 2021-ci il***